# Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları...

**Bu yaxınlarda pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı Fərrux Rüstəmovun "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabı nəşr olunub. Əsərin "Ön söz"ünün müəllifi ADPU-nun rektoru, professor Cəfər Cəfərov, elmi redaktoru professor Asəf Zamanovdur.**



ADPU-nun tarixinə aid yazılmış bu dəyərli əsər bizi keçmişimizlə üzləşdirir. Burada hələ Çar Rusiyasının müstəmləkəsi olan Şimali Azərbaycanın varlığı, bir millət kimi ayaqda qalması üçün çabalayan aristokratiya, milli burjuaziyanın görkəmli simaları, ulusun nicatını təhsildə görən ziyalılar və onların Azərbaycan xalqı üçün göstərmiş olduğu fədakarlıq əks olunub. Fərrux müəllimin bu əsərini oxuduqca bir oxucu olaraq hər zaman düşündüyüm suallara cavab tapa bildim. Necə oldu ki, 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqaviləsi ilə ikiyə bölünmüş Şimali Azərbaycan 1918-ci ildə Cumhuriyyət elan etdi, 1920-ci ildə Sovet imperiyası tərəfindən süquta ugradılsa da 1991-ci ildə yenidən öz Müstəqilliyinə qovuşa bildi, bəs necə oldu ki, Cənubi Azərbaycanda 1910-cu ildə Səttarxanın, 1920-ci ildə Şeyx Məhəmməd Xiyabaninin, 1945-1946-cı illər Seyid Cəfər Pişəvərinin öndərliyi ilə müstəqilliyə cəhd olunsa da nəticə əldə olunmadı? Cənubi Azərbaycanda Azərbaycan türklərinin sayı bizdən üç dəfə çoxdur, onlar ən az bizim qədər torpağına, milli kimliyinə bağlıdırlar. "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabında bu suallara cavab var. Şimali Azərbaycanın müstəqilliyinə gedən yol məhz əsrin əvvəllərində başladılmış təhsil inqilabından, müasir, yeni tipli məktəblərin açılmasından, bu işə öz kapitalını əsirgəməmiş, sözün həqiqi mənasında milli olan insanların fədakar əməyindən keçir.

Əsərin "Giriş" hissəsində oxuyuruq ki, hələ 1899-cu ildə Bakıda Çar hökumətinin nümayəndələri ilə Bakı sahibkarları və xeyriyyəçiləri ilə təşkil olunmuş görüşdə Bakı Kommersiya Məktəbinin açılması ilə bağlı razılıq əldə edilib. İlkin mərhələdə məktəb üçün xüsusi binanın olmaması belə Bakı milyonçularını - H.Z. Tağıyevi, M.Nağıyevi və Fərrux bəy Vəzirovu ruhdan salmayıb, onlar təşkil olunacaq məktəb üçün binanın kirayələnməsinə və digər xərclərin qarşılanmasına maliyyə vəsaiti ayırıblar. Professor Fərrux Rüstəmov qeyd edir ki, məhz Bakı Kommersiya Məktəbinin Qəyyumlar Şurasının üzvləri-fəxri sədr H.Z. Tağıyev, Ə.Topçubaşov və digərləri Bakı Dumasına müraciət edərək Bakı Kommersiya Məktəbinin tikintisi üçün yer ayrılmasını xahiş edib. Dumanın razılığını əldə etmiş Qəyyumlar Şurası Çar İmperiyasının Sankt-Peterburq Memarlar Cəmiyyətinə 800 nəfərlik Bakı Kommersiya Məktəbinin binasının layihəsi üzrə müsabiqə elan etməyi xahiş edir. Müsabiqə elan olunur, 8 oktyabr 1904-cü ildə yekun vurulmuş müsabiqədə ilk üç yeri qazanmış layihədən məhz ikinci yeri tutmuş memar-mühəndis Q. T. Mikelovun "22№-li" adlı layihəsi məktəb binasının tikintisi üçün münasib görülür. Çox keçməyəcək, APİ(ADPU) görkəmli dövlət xadimi N.Nərimanovun 26 avqust 1921-ci ildə imzaladığı "Birinci Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutunun təşkili haqqında" 66 saylı Dekreti ilə yaradılacaq və 100 ilin universitetinin həyat yolu bu evdən - bu binadan başlayacaq.

ADPU-nun tarixi, universitetin əsas tədris korpusunun yerləşdiyi bu möhtəşəm binanın tarixi məndə hər zaman maraq doğurub. Hətta mən bir dəfə 1981-1989-cu illər ADPU-nun rektoru işləmiş akademik Afad Qurbanovdan bu haqda soruşmuşdum. Xatirimdədir, rəhmətlik Afad müəllimlə birgə ikinci mərtəbəyə qalxırdıq. Mən: Afad müəllim, bu bina neçənci ildə tikilib?-deyə sual verdikdə, o , -1905-ci ildə,- demişdi. Afad müəllim o zaman əlavə olaraq dedi ki, bu bina II Dünya müharibəsi zamanı Hərbi qospital olub, (bu haqda Fərrux müəllim haqqında danışdığımız kitabda yazır) burada dünyasını dəyişən əsgərlərin bir çoxu elə binanın zəmin qatında dəfn olunub. Universitetlə bağlı bu kimi yüzlərlə tarixi faktlar pərakəndə halda müxtəlif mənbələrdə, bəzi insanların yaddaşlarında itib-batırdı, professor Fərrux Rüstəmovun "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını dəyərli edən amillərdən biri də budur ki, gələcək nəsillər, universitetin tarixini araşdıracaq elm adamları məhz bir mənbədən" Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabından istifadə etməklə vaxt itkisindən azad olacaq və təhsil tariximiz unudulmayacaq.

Bu kitab 100 illik tarixə malik, minlərlə məzunu olan bir universitetin tarixidir, bu tarixə sahib olmaq nə qədər şərəflidirsə, bu tarixi öyrənmək nə qədər qürurvericidirsə, bu tarixi yazmaq o qədər çətin və zəhmət tələb edən, gərgin zehni fəaliyyət, təcrübə, dərin elmi erudisya, anlitik təfəkkür tələb edən bir işdir.

Professor Fərrux Rüstəmov təkcə universitet tarixini təsvir etməklə məhdudlaşmayıb, eyni zamanda universitetin inkişafında xidməti olan rəhbər işçilərin, rektorların fəaliyyətini tədqiq edib. Müəllif təsvirçilikdən uzaq, konkret faktlara əsaslanaraq hər bir rektorun Azərbaycanda pedaqoji kadrların hazırlanmasında əldə etdiyi mühüm nəticələri oxucularla bölüşür.

Əsərdə ADPU-nun hazırki rektoru, professor C.Cəfərov da daxil olmaqla 31 rəhbər şəxs haqqında məlumat, onların həyatı, elmi-pedaqoji fəaliyyəti, Azərbaycan təhsilində oynadıqları rol, Pedaqoji Universitetin inkişafında göstərdikləri xidmətlər əks olunub.

"Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını səhifələdikcə görürük ki, APİ-nin bir neçə rektoru günahsız yerə, qondarma ittihamlarla repressiya qurbanı olub. Əsərdə Şərif Əhmədziyanoviç (1887-1936), Pənah Ələkbər oğlu Qasımov (1881-1939), Məmməd Abbas oğlu Bayramov (1898-1938), Mirzə Sultan oğlu Məmmədov (1901-1938), Mirzə Davud oğlu Rəsulzadə (1900-1943) kimi repressiya qurbanlarının həyat hekayələrini həyəcansız, ürək ağrısız oxumaq mümkün deyil. Məlum olur ki, 1925-1939-cu illər APİ-yə (ADPU) rəhbərlik etmiş doqquz rektordan beş nəfəri repressiya qurbanıdır. Bu, Azərbaycan təhsilinə qanlı repressiya illərinin vurduğu zərbənin əyani sübutudur.

Əsərdə həyatı, elmi-pedaqoji fəaliyyəti əks olunmuş 31 rektorun APİ (ADPU)-yə rəhbərlik etdiyi dövrdə əldə etdiyi nailiyyətlər qələmə alınır. Onların bir neçəsinə nəzər salaq:

Fətulla Əziz oğlu Rzabəyli (1885-1968). APİ-nin ilk direktoru (rektoru). O, 1921-1924-cü illər APİ (ADPU)-yə rəhbərlik edib. Fərrux müəllimin verdiyi məlumata görə, 6 nəfər tələbəsi olmuş bir elm ocağına direktor təyin olunmuş Fətulla Əziz oğlu Rzabəylinin düzgün idarəçiliyi sayəsində 1923-1924-cü illər artıq institutda 100 tələbə təhsil alırdı. Fikrimizcə, F.Ə.Rzabəylinin Azərbaycan təhsili, institut qarşısında ən böyük xidmətlərindən biri həmin dövrdə APİ-yə V.V.Bartold, İ.İ.Meşşainov,N.Y.Marr, A.N.Samoyloviç, P.K.Juze, T.Hikmət kimi alimləri elmi pedaqoji fəaliyyətə cəlb etməsi olub. Burada müəllifin fikrini xatırlmaq yerinə düşərdi: "İlk milli ali təhsil müəssisəsində güclü müəllim kollektivi yaradıldı və ildən-ilə onların sayı milli kadrların hesabına artdı. Ali pedaqoji təhsil müəssisəsinin qarşısına yüksək ixtisaslı müəllim kadrları ilə bağlı qoyulan tələbin reallaşmasında bu çox vacib və zəruri məsələ idi."

"Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabına nəzər saldıqda görürük ki, 1921-1930-cu illər APİ(ADPU)-yə 6 rektor- F.Ə.Rzabəyli, M.R.Əfəndiyev, H.İ.Mahmudbəyov, Ş.Ə.Manatov, C.M.Məmmədzadə, P.Ə.Qasımov; 1930-1940-cı illər 4, 1940-1950-ci illər 5, 1950-1960-cı illər 3, 1960-1970-3, 1970-1980-ci illər 1, 1980-1990-cı illər 1, 1990-2000-ci illər 3, 2000-2010-cu illər 2, 2010-2016-cı illər 2 rektor rəhbərlik edib. Bu müqayisə onu göstərir ki, APİ (ADPU)-nin yaradıldığı ilk illərdə bu elm ocağına rəhbərlik etmiş insanların say çoxluğu var. Bu da öz növbəsində həmin illərə aid arxiv materiallarının tapılıb işlənməsi, xüsusilə də repressiyaya məruz qalmış rəhbərlərin həyat və fəaliyyəti haqqında məlumatın çətinliklə əldə edilməsi deməkdir ki, müəllif bu işin öhdəsindən məharətlə gəlib, oxucu qarşısında ADPU-nun keçdiyi şanlı tarixi birəbir canlandırıb.

Bir oxucu olaraq "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını dərin maraq və diqqətlə oxudum, məzunu, əməkdaşı olduğum universitetin necə çətinliklərlə 100 yaşa gəlib çatdığını gördüm. Əsəri həyəcanla, eyni zamanda qürur hissi ilə oxudum.

"ADPU-nun tarixi" də adlandıra biləcəyimiz bu əsərdə bir neçə rektor haqqında müəllifin xüsusi şövqlə bəhs etdiyinin şahidi olursan. Məsələn, müəllif 01.07.1981-06.04.1989-cu illər ADPU-ya rəhbərlik etmiş akademik A. Qurbanov haqqında olan bölməni o qədər rəğbətlə işləyib ki, oxucu sətirlərin sehrinə düşür. Bu təsadüfi deyil. Akademik A. Qurbanovun ADPU-ya rəhbərlik etdiyi həmin illəri universitetin "qızıl dövrü" adlandırırlar. Hər şeydən öncə ona görə ki, məhz Afad müəllimin rektor olduğu illərdə Ümummilli liderimiz Heydər Əliyev APİ (ADPU)-ni ziyarət edib, institutun müəllim və tələbələri qarşısında çıxış edib. Afad müəllimin rektor olduğu dövrdə Ulu öndərin xeyir-duası ilə APİ (ADPU)-də "İbtidai hərbi və fiziki təlim" fakültəsi açılıb. Məhz Afad müəllimin rəhbərlik etdiyi dövrdə institutda keçirilmiş elmi-praktik konfranslar, dünya şöhrətli alimlərin bu tədbirlərdə iştirakı institutun nüfuzunun yüksəlməsinə səbəb olub.

Professor Fərrux Rüstəmovun elmi-pedaqoji və idarəçilik fəaliyyətinə xüsusi diqqətlə yanaşdığı rektorlardan biri də ADPU-nun sonuncu rektoru, professor Cəfər Cəfərovdur. Müəllifin 2016-cı ilin 23 iyul tarixindən ADPU-ya rəhbərlik edən professor Cəfər Cəfərovun ötən üç il ərzində gördüyü işləri böyük həvəslə təsvir və təqdir etməsi təsadüfi deyil. Geridə qoyduğumuz son üç il və bu üç ildə görülmüş işlər həm Azərbaycan ictimaiyyətinin, həm də universitet kontingentinin gözü önündə baş verib. Əsərdə qeyd olunmuş faktlar hər birimizin canlı şahidliyi ilə həyata keçib. Müəllif professor C.Cəfərovun ADPU-da rektor kimi fəaliyyətini aşağıdakı şəkildə xarakterizə edir:

"Prof. Cəfər Cəfərovun qətiyyəti nəticəsində bütün obyektiv və subyektiv çətinliklərə, narazılıqlara baxmayaraq birləşmə prosesi qısa bir zamanda başa çatdı,universitetin sakit həyatı bərpa edildi və ciddi quruculuq işlərinə başlanıldı. Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya birləşməsi və onun filiallarının(Ağcabədi,Cəlilabad,Quba, Şəki və Şamaxı)universitetin strukturuna çevrilməsi nəticəsində ADPU ölkədə pedaqoji kadr hazırlığı ilə məşğul olan vahid ixtisaslaşmış ali təhsil müəssisəsinə çevrildi...Bununla da ADPU inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu.Bu məqsədlə 2016-cı ilin ikinci yarısında Təhsil Nazirliyinin tapşırığı və prof.Cəfər Cəfərovun rəhbərliyi ilə universitetin "Transformasiya üçün Yol Xəritəsi", "Tədrisin Keyfiyyətinin Yüksəldilməsinə dair 10 illik Strateji İnkişaf Planı" adlı iki fərqli strateji inkişaf layihələri hazırlandı".

Bundan başqa, müəllif haqlı olaraq ötən üç il ərzində ADPU-da aparılan köklü islahatları, beynəlxalq səviyyədə universitetimizin dünyanın aparıcı universitetləri ilə əlaqələrin qurulmasında atılan mütərəqqi addımları, ötən illər ərzində Respublikamızda keçirilmiş qəbul imtahanlarında 500 dən çox bal toplamış orta məktəb məzunlarının məhz ADPU-nu seçməsi faktının düzgün idarəçiliklə bağlı olduğunu qeyd edir və burada professor Cəfər Cəfərovun səmərəli fəaliyyətini göstərir.

Bu gün universitet həyatında irəliyə doğru atılmış mütərəqqi addımlara şahid olan bizlər olmadıqda belə müəllifin real faktlara söykənən qeydləri yaşayacaq. Heç şübhəsiz, professor Fərrux Rüstəmov "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabını 31.01.2020 tarixindən sonra yazsaydı, kitabın ADPU-nun hazırki rektoru, professor Cəfər Cəfərov haqqında olan hissəsinə aşağıdakı fikirləri də əlavə edərdi:

31 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov, ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberqer, ABŞ-ın Corc Vaşinqton Universitetinin Təhsil və insan fakültəsinin dekanı Maykl Foyer və ADPU-nun rektoru, professor Cəfər Cəfərovun iştirakı ilə ADPU və Corc Vaşinqton universitetləri arasında ikili diplom proqramı imzalanıb. Bu isə o deməkdir ki, 100 yaşlı Azərbaycan Dövlət Pedaqoji Universiteti dünya universitetlərinə inteqrasiya edir, məhz rektor Cəfər Cəfərovun və onun çevik komandasının birgə səyi ilə Azərbaycan müəllimi yetişdirən bir universitetin məzunları dünyanın aparıcı universitetlərində təhsilini davam etdirib milli təhsil strategiyasına töhvə verəcək.

"Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabı 100 illik bir tarixin aynasıdır desək, yanılmarıq. Bu əsərdə APİ-nin (ADPU) yarandığı ilk gündən günümüzə qədər bütün tarixi keçmişi faktlarla əks olunub. Müəllifin əsərin sonunda yazdığı cümləni xatırlamaq yerinə düşərdi:"Tarixdə isə tarixi yaradanlarla yazanlar qalır." Burada müəllif "tarixi yaradanlar" dedikdə ADPU-nun bu günə qədər yaranmasında, formalaşmasında və inkişafında rolu olan ziyalılarımızı nəzərdə tutur, lakin unudur ki, ADPU-nun yetirməsi, müəllimi, professoru və ən nəhayət "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" kitabının müəllifi olaraq o özü də tarixi yaradanlardandır, tarixdə qalanlardandır....

***Bəhram CƏFƏROĞLU***
***ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru***